The Interview Times.

Buraxılış No.9 Mart, 2023 Pulsuz

# YAEL




## Biography

*YAEL, Azərbaycan adı Nərgiz Musayevadır və əslən azərbaycanlı dağ yəhudilərindəndir. ADA Universitetinin məzunudur və hazırda əsası Minsk şəhərində qoyulan "Enerjew" adlı yəhudi təşkilatında menecer vəzifəsində çalışır. Eyni zamanda fərdi qaydada ingilis dili üzrə dərslər keçir və "conversation"-lar təşkil edir. Bakıda yaşayır və ABŞ-da tanış olduğu alman əsilli Martin ilə evlidir.*

**Gözlərinin rəngi nədir?**

Gözlərimin rəngini heç mən özüm də bilmirəm (gülür). Bu haqda gülməli bir əhvalat var. Deməli ətrafımdakı hər kəs həmişə gözlərimin hansı rəng olduğunu soruşurdu və açığı mən özüm də dəqiq bilmirdim. 16 yaşım tamam olduqda şəkilli şəxsiyyət vəsiqəsini almalı idim və bu zaman gözlərimin rəngini dəqiq öyrənə biləcəkdim. Vəsiqəni almağa anamla getmişdim və oradakı yoxlanış aparan həkim mənə təkrarən: "Xanım, linzalarınızı çıxarın"- deyirdi. Sonda anam dedi ki: "Xanım, mən özüm dünyaya gətirmişəm, gözlərindəki linza deyil" (gülür). Həkim diqqətlə baxdıqdan sonra dəqiq nə rəng olduğunu bilmədi və qarışıq rəng yazdı. Ruscada "морской синий" deyə bir rəng var. Yəni əslində tam dəniz mavi rəng deyil, maviylə yaşılın qarışığıdır. Buna görə bəzən mənə "dəniz gözlü" də deyirlər. Mən isə gözümün rəngində heç vaxt bir fərqlilik görməmişəm. Hər dəfə güzgüyə baxanda belə də olmalıymış kimi qəbullanmışam.

**Yəhudi əsilli olmaq necə hissdir?**

Azərbaycanda yəhudi əsilli biri olmaq necə hissdir... Bunu bəzən mən də sorğulayıram. Mən Bakıda anadan olmuşam və 7 yaşıma kimi yəhudi nədir deyə düşünməmişəm, çünki bizim ailə tipik Azərbaycan ailəsi kimi olub. Mən 7 yaşımda olarkən, ailəm məni rus dilli yəhudi məktəbinə göndərib. Halbuki mənim ailəm rus dilində danışmır. Mənə çox qəribə gəlmişdi ki mənim anam məni niyə rus dili təmayüllü məktəbə qoyur. Mən elə bilirdim ki, sadəcə rus dilini öyrənmək üçün məni bu məktəbə göndərirlər və yəhudiliklə heç bir əlaqəsi yoxdur. Amma sonra bağçaya getdim və hardasa ikinci-üçüncü sinifə qədər mənim yəhudilik haqqında heç bir fikrim yox idi. Mən yəhudinin fərqli nəsə olduğunu belə başa düşmürdüm. Düzdür, bütün adət-ənənələri edirdik, hətta bayramlar da keçirirdik və mən düşünürdüm ki, bunu bütün azərbaycanlılar edir. Daha sonra fərqinə vardım ki, yəhudilik tamam fərqlidir və mən bundan sonra

ətrafıma yəhudi icması toplamağa başladım. Mən istəyirdim ki, onları birləşdirim və yəhudi uşaqlarıyla işləyim. Mən heç vaxt yəhudi olduğumu gizlətməyə çalışmamışam, hətta yəhudi adım da var. Mənim nənəm Qubada yaşayıb və ailədə 9 uşaq olubla. Onlar Sovet vaxtı ayrı-seçkiliyə məruz qalıblar deyə hələ də hər yerdə yəhudi əsilli olduqlarını deməyə çəkinirlər və bunu gizlədirlər. Hətta nənəm yəhudi olduğuna görə məktəbdə müəllimlər onun qiymətini kəsib və diplomunu belə verməyiblər. Nənəm bəzən mənə deyir ki, universitetdə yəhudi olduğunu gizli saxla, yoxsa sənin qiymətini kəsərlər, amma mən əksinə hər zaman yəhudi olduğumu vurğulamışam. İndiyə qədər heç vaxt ayrı-seçkiliyə məruz qalmamışam, əksinə insanlar mənə yəhudi və fərqli olduğum üçün daha çox maraq göstəriblər. Mənim atam azərbaycanlı, anam isə yəhudidir və mən həmişə həm azərbaycanlı, həm də Azərbaycanda yaşayan bir yəhudi olaraq bu dünyaya nə kimi töhfəmola bilər deyə düşünmüşəm. Hal-hazırda Azərbaycanda yaşayan yəhudilər etnik olaraq dağ yəhudiləridir və ən qədim yəhudi icması sayılır. Dağ yəhudilərinin adət-ənənələri, həm yəhudi, həm də Azərbaycan adət-ənələrinin qarışığıdır, hətta ünsiyyət dilləri belə Azərbaycan dilinə oxşuyur. Yəhudilərin rəsmi dili "İvrit" dilidir və İsraildə olarkən o dildən istifadə edirlər. Amma dağ yəhudilərinin öz dilləri fars dili ilə qarışıqdır və tamam fərqli bir dildir. Yəhudi bayramları nə qədər Azərbaycan bayramlarına oxşasa da, onların özünəməxsus çoxlu bayramları var. Məsələn, mənim ən sevdiyim bayram "Hanukkah" bayramıdır. Bəlkə eşitmisən çox populyar bayramdır. "Hanukkah" milad bayramıyla üst-üstə düşdüyünə görə bəzən insanlar düşünürlər ki, bu bayram yəhudilərin milad bayramıdır, amma elə deyil. Bu bayramın məğzi möcüzələr dolu və işıqlı bir bayram olmasıdır. "Hanukkah" 8 gün davam edir və biz 8 gün ərzində hər gün bir şam yandırırıq. İnsanlar şamı yandırmaqla düşünürlər ki, bu dünyaya nə qədər işıq saçsaq, dünya bir o qədər aydınlanacaq. Keçmişdə bayram zamanı çox möcüzələr olub deyə insanlar buna inanırlar. Mən özüm də inanıram ki, həmişə bu bayram ərzində mənim də həyatımda möcüzələr olacaq.

**Qüds şəhərində 4 əsas məhəllə var: Müsəlman məhəlləsi, yəhudi məhəlləsi, xristian məhəlləsi və erməni məhəlləsi. Belə bir tarixi və dini cəhətdən əhəmiyyətli yerdə erməni məhəlləsinin olması bir azərbaycanlı olaraq səndə qıcıq yaratmır ki?**

Əslində bu sual haqqında heç vaxt düşünməmişəm. Məncə bu, insanın nə dərəcədə vətənpərvər olmasından asılıdır. Düşünürəm ki, mən patriotam.pü. Əlbəttə ki, vətənimin düşməni mənim də düşmənimdir. Ancaq bir yəhudi kimi söhbət ermənilərə çatmamış deyə bilərəm ki, Qüdsdə xristianlar və yaxud müsəlmanlar yaşayır. Mən düşünürəm ki, Qüds yəhudilərindir və bu ideologiyanın tərəfdarıyam. Bəlkə də mənimlə razılaşmaya bilərsən, amma bu çox siyasi bir sualdır (gülür). Qüds İsrailin paytaxtıdır. Dünya bunu tanımasa belə yəhudilər paytaxt şəhəri Tel-Əviv yox Qüds kimi qəbul edirlər. Amma bir azərbaycanlı olaraq əgər bu məsələyə qıcıq olsam, yəqin ki, nəsə edərəm.

**Nişanlın Albert. Onun haqqında biraz məlumat verə bilərsənmi? Kimdir, əslən haralıdır, necə tanış olmusunuz və s.**

Xeyr, onun adı Martindir, Martin Franz. Və o mənim artıq yoldaşımdır. Əslən almandır və orada yaşayır. Niyə elə baxdın?(gülür). Mən ADA` dan ikinci mübadilə proqramını Amerikada – Texas A&M International Universitetində etmişəm. Hər ikimiz mübadilə proqramı tələbələriydik və biz "international" qrupda tanış olmuşuq . Bilmirəm, işlər necə getdisə biz evlənməyə qərar verdik. Əslində başda sadəcə Las Vegası görmək istəyirdik, lakin niyə də kiçik nikah etməyək deyə düşündük. Evlənmək təklifi isə çox gülməli idi. Mən gözlənilməyən anlarda bu cür "crazy" qərarlar verməyi sevirəm. Biz heç nəyi planlamadıq. Sadəcə Las Veqasa getmək istəyirdik və orda evlənmə prosesi elə də uzun deyil. Düşündük ki, belə bir şey varsa niyə də olmasın. Son ana qədər qərarımızdan əmin deyildik, hətta mənim evlilik üçün paltarım belə yox idi. Özümün qısa ağ donum var idi və "Amazon"dan fata sifariş etdim. Ondan sonra da McDonalds-a gedib bütün şəhəri eləcə gəzdik(gülür). Təbii ki Azərbaycana gəlib böyük toy edəcəkdik, bu yalnız ikimizin əyləndiyi bir an oldu. Hal-hazırda o,



Almaniyadadır və yaxın zamanda mən də ora yerləşəcəm. Belə bir şey deyim, mən həmişə başqa ölkələri gəzməyi çox sevmişəm. Amma heç vaxt Almaniyaya getmək kimi bir planım olmayıb, çünki mən yəhudi məktəbində oxumuşam və orda "Holocaust", ikinci dünya müharibəsi vacib mövzular idi. Necə ki Azərbaycanda uşaqlıqdan bəri ermənilərə qarşı bir neqativ hiss var, hətta uşaq erməni görməsə belə avtomatik olaraq o uşaqda hiss yaranır. Yəni, məndə də almanlara qarşı neqativ bir hiss var idi, nə onlarla dostolmaq, nə də oraya gedibbaxmaq, mənə maraqlı gəlmirdi. Amma gərək, "never say never" (gülür). Valideyinlərimə gəldikdə isə, reaksiyaları müsbət idi, məncə bu bizim ailənin özünün də multikultural olmasından qaynaqlanır. Mən həmişə valideyinlərimə hörmət etmişəm və onlar da həmişə mənim qərarlarıma hörmətlə yanaşıb. Martin ilə ailə qurmaq istədiyimi deyən zaman reaksiyaları müsbət oldu, çünki qarşı çıxsalar deyə bilərdim ki, siz də o vaxt iki ayrı millət olaraq evlənmisiniz (gülür). Martin Azərbaycana gəlib ailəmlə tanış olduqdan sonra valideyinlərimin təəssüratları daha da müsbət yön aldı. O, dilimizi bilmədiyi üçün mən deyilənləri tərcümə edirdim hər iki tərəfə və o zaman anladım ki, ünsiyyət qurmağ üçün dil bilmək vacib deyil, əsas olan insanların auralarının uyğunlaşmasıdır.

**Memi və ya "second hand" geyim butikləri. Bu növ geyimlərə üstünlük verməkdə əsas kriteriyan nədir?**

Mən iqtisadiyyat üzrə təhsil almağıma baxmayaraq həmişə dəbi və dəbli geyiməyi çox sevmişəm. Söhbət sadəcə paltarları alıb baxmaqdan getmir, geyimlərin mənim üçün dili var, hər bir parçanın bir-biriylə uyğunlaşması, rəng tonlarının ahəng yaratması çox önəmlidir. Mən "dayanıqlı dəb" mövzusunu dəstəkliyirəm, çünki insanlar həqiqətən dəbli olmaq üçün milyonlarını xərcləməyə də bilər. Memi, ikinci əlvə digər bizim baxmadığımız mağazalardan gündəlik geyim üçün yaxşı geyimlər çıxarmaq olar. Bu əsasən tələbələr üçün çox yararlıdır ki, xərcləri az çıxır. Və Azərbaycanda insanlar bəzən buna mənfi yanaşırlar, lakin mən instagramda post paylaşan zaman xeyli müsbət reaksiyalar gəlmişdi bu paltarı haradan almısan deyə. Uşaq vaxtı atam bizi Memiyə aparırdı və o zaman atamı anlamırdım. Və sonradan başa düşdüm ki geyimin sənin şəxsiyyətindən üstün deyil. Bəlkə də, buna görə mən Memidən geyinməyi həmişə sevmişəm.

**Sənin köhnə qapılar ilə bağlı paylaşım seriyan var.Nədən qaynaqlanır bu maraq?**

Mən şəkil çəkdirən zaman arxa planın rəngli olmasına, divarlara, qapılara önəm verirəm. Fərqi yoxdur qapı köhnə ya yeni olsun. Bəli, mənim elə bir səhifəm var və o sırf qapılarla bağlıdır. Mən o səhifəni dostumun dəstəyiylə 2016-da açmışdım, ancaq indi səhifəni istifadə eləmirəm, çünki vaxt olmur. Mən sevirəm ki, mənim geyimlərimlə qapıların rəngləri bir-birinə uyğunlaşsın və bu insanlar tərəfindən maraqla qa-

rşılanmışdı. Mən Bakını qapıların yeriylə tanıyıram və küçənin adını bilməsəm belə bilirəm ki, hansı qapı harada yerləşir. Çəkdirdiyim şəkillərdə ancaq Azərbaycanda deyil fərqli ölkələrdən olan qapılar da var. Sözsüz ki, məndən sonra Azərbaycanda bu cür səhifələrin sayı artdı (gülür). Sonradan gördüm ki, xaricilərdə elə bir səhifələr var imiş , amma onlar yalnız qapının öz şəklini çəkir, mən isə qapıları və özümüçəkirdim.

**Qəzza şəhərində uzun illər ərzində Fələstin müsalmanlarına qarşı olunan zorakılıq. Bir Yəhudi əsilli olaraq bütün bu olanlara münasibətin nədir?**

Sən niyə belə siyasi suallar verirsən ki? (gülür) Bir insan olaraq deyə bilərəm ki, dünyanın harasında olmasından aslı olmayaraq müharibə olmamalıdır və insanlar ölməməlidir. Müharibə heç vaxt, heç kimə yaxşılıq gətirmir hətta orda qalib tərəf belə olsa bu o demək deyil ki, müharibə yaxşı bir şeydir. Məsələn, ikinci Qarabağ müharibəsi dövründə biz sevindik ki, Qarabağı geri aldıq, amma mən hər zaman oturub danışıqla problemlərin həll olunmasının tərəfdarıyam. Düzdür, bəzən problemlərin danışıq yolu ilə həll yolu tapılmır. Bunu İsrail-Fələstin vəziyyətində də görə bilirik ki nə qədər tərəflər oturub danışsalar da hələ də ortaq bir qərara gələ bilmirlər. Bir yəhudi olaraq, mən öz ölkəmi - İsraili dəstəkləyirəm. Bəzən insanlar İsraili daha təcavüzkar ölkə kimi tanıyırlar, amma bu medianın təsirindən yaranır. Məncə, bunu Azərbaycanlılar daha yaxşı anlayar. Necə ki, ikinci Qarabağ müharibəsi zamanı medianın rolu böyük idi və BBC, CNN kimi məhşur kanallar Azərbaycanı daha təcavüzkar ölkə kimi göstərirdi və xalq olaraq buna görə əsəbiləşib dünyaya düzgün məlumatlar çatdırmağa çalışırdıq. İsraildə yaşamış biri olaraq deyə bilərəm ki, İsraildə də vəziyyət eynidir, media İsraili daha təcavüzkar tərəf kimi göstərir. Məsələn, hal-hazırda İsraildə çoxlu ərəblər yaşayır və oranın vətəndaşıdır. Niyə? Çünki İsrail vətəndaşı olmaq onlara bir sıra imkanlar yaradır. Belə baxanda isə, İsrail torpaqları Fələstindən əvvəl yəhudilərin olub və onlar oradan qovulublar. Yenidən yəhudilər öz torpaqlarına qaydanda, o torpaqları varlı yəhudilər pulla fələstinlilərdən alıblar. Bəzən düşünürəm ki, satmazlardılar da torpaqları. Desəniz ki, beləonları zorla çıxarıblar, öldürüblər...Bunu fələstinlilərin özü də edir. Sadəcə İsrail texnika baxımından güclü tərəf olduğuna görə ,qarşı tərəfə reaksiya verəndə bütün dünyaya səs salır. Insanlar da məsələyə bir tərəfdən baxdığına görə düşünürlər ki, İsrail başqalarının torpaqlarını alıb ordakı insanları öldürürəmma bu belə deyil, məsələyə hər iki tərəfdən baxmaq lazımdır. Mənim qardaşım İsrail əsgəridir və elə hekayələr danışır ki... Qardaşım bəzən çox təhlükəli zonalara gedir və onun üçün çox narahat oluruq. Amma o çox mərd əsgərdir. Lakin Israildə yaşayan insanlar hər an qorxu altında yaşayır orada nəsə olan zaman siqnal səsi verilir və insanlar siqnal səsini eşidən zaman qaçıb zirzəmilərdə gizlənirlər və hər an raket, bomba təhlükəsiylə qarşı-qarşıyadırlar. Hətta çox zaman gənc israillilər ərəblər tərəfindən yolda bıçaqlanırlar. İsrail onları öz ölkələrinə qova da bilər amma etmir. Ərəb ölkələrində isə bir İsrail vətəndaşının gedib orda yaşaması mümkünsüz bir şeydir. Düzdür, bəzi ərəb ölkələriylə- Misir və yaxud İordaniyayla yaxşı əlaqələri olsa belə israillilərin daimi orda yaşaması mümkün deyil, baxmayaraq ki, İsraildə nə qədər ərəblər var. Mənim özümün fələstinlilərə qarşı bir neqativ hissim yoxdur hətta mən onlarla işləyirəm də. Belə bir əhvalat danışım, Qüdsdə məhşur "Westeren Wall" var, mənim 16 yaşım olanda ad günüm vaxtı ora getmişdim. Oranın yarısı ərəb koloniyalarından ibarətdir və İsrail vətəndaşlarının ordan keçməsi qadağandır. Amma mən Azərbaycan vətəndaşı olduğuma görə mənim ordan keçməyim problem deyildi. Orada turistlər üçün yarmarkalar var idi və mən də bu yarmarkaların birində olan mağazaya girmişdim. Satıcı oğlan azərbaycanlı olduğumu biləndə mənə qarşı pozitiv bir münasibət yarandı. Daha sonra mən suvinerlərə baxan zaman oğlan boynumdakı "Davidin ulduzu"nu görüb yəhudi olduğumu anladı və qışqıraraq məni oradan qovaladı. Mən heç vaxt həyatımda belə bir vəziyyətlə qarşılaşmamışdım və o an çox qorxmuşdum.

**Geyimlərini bir günlük icarəyə verirsən, və ya bir neçə. Geri aldıqdan sonra onları yenidən geyinmək necə hiss yaradır səndə?**

Xeyr, mən onları satıram. Bəzən kirayə verdiyim paltarlarım da olur, amma mən bu paltarı kirayə verirəmsə çox güman ki, artıq geyinmədiyim paltar olduğuna görə verirəm. Mən geyinilməyən paltarları atmıram, bəzən ehtiyacı olanlara verirəm, bəzən isə onları satıb gəlirə çevirirəm.

**"Pianist" filmində mənə görə ən təsirli səhnə filmin sonuna yaxın alman zabitinin pianistə çörək, cem və ən maraqlısı konserv qapağı açan verməsi idi. Bir faşist belə olsan hər bir insanın qəlbində bir vicdan hissi var, deyilmi?**

Mən "Yin Yang" simvoluna çox inanan birisiyəm və düşünürəm ki, insanlar nə yaxşıdır nə də pis. Amma daha qəddar və daha mərhəmətli olan insanlar da var bu başqa məsələdir. Məncə, hər yaxşının içində bir pislik, hər bir pisliyin içində yaxşılıq var. Çünki, insanların uşaqlıqdan nə yaşadıqları, nə gördükləri də şəxsiyyətin formalaşmasına böyük rol oynayır. Bəzən insanlar mənə sual verirlər ki "sən yəhudisən yəqin ki, ikinci dünya müharibəsi və yəhudilərlə bağlı filmlərə baxırsan". Onlar bu sualı elə rahatlıqla qururlar ki əslində insanların necə faciə yaşadıqlarını düşünmürlər. Yəhudilər və ikinci dünya müharibəsi ilə bağlı filmlərə-"The Pianist" filmi də daxil çox baxmışam. Pianist filmindəki əsas aktyorun özü də yəhudidir və artıq hər şey məhv olandan sonra, gec olsa belə alman zabitinin gəlib ona kömək etməsi onu göstərir ki, insan nə qədər qəddar olsa da içində az daolsa bir yaxşılıq var. Mənim özümün də pis və yaxşı tərəflərim var amma günün sonunda hansını seçdiyimiz bizdən asılıdır.

**Sən ADA-dan yeni məzun olmusan, ancaq "Instagram"-da 12 mindən çox izləyicin var. Bu qədər kütləni necə yığa bilmisən?**

Mən 16 yaşından bəri fərqli yəhudi təşkilatlarında işləmişəm. Hal-hazırda, "Enerjew" adlı bir təşkilatın "Könüllülər" departmentin kuratoru və təlimçisiyəm. "Enerjew" təşkilatının əsas məqsədi dünyada olan yəhudi icmaalarının birləşdirilməsi və 12-17 yaş qruplarına daxil olan insanlara seminarlar, workshoplar keçirilməsidir. Bu təşkilatın əsası Minsk şəhərində qoyulub və hazırda dünyanın 50 şəhərində fəaliyyət göstərir. Mən əvvəl Bakıda olan qurumun direktoru idim, indi isə əsas "staff"da işləyirəm. İzləyici kütləmə gəldikdə isə, mən instagramda hesab yaradan zaman belə bir strategiyam yox idi ki, müəyyən izləyici kütləsinə çatım. Sadəcə normal, hamı kimi bir hesab yaratmışdım. Sonradan dostlarım mənə dedi ki, hesabını niyə açıq etmirsən. Düşündüm ki, niyə də olmasın və o zamanlar bir qızın hesabını kütləyə açıq şəkildə istifadə etməsi biraz qalmaqallı məsələ idi. Hesabımı kütləyə açdıqdan sonra gözləmədiyim qədər müsbət reaksiyalar, komplimentlər almağa başladım və almağa da davam edirəm. Mənim fərqli geyim tərzim həm də bir yəhudi olaraq Azərbaycanı bu qədər sevməyim insanlara maraqlı gəlmiş ola bilər. İzləyicilərim bəzən mənə yazırlar ki, siz nəsə paylaşmasanız belə sizin səhifəyə daxil olanda müsbət aura alırıq və bu məni insanların həyatına təsir etməyə, onlara köməklik etməyə daha da motivasiya edir. Əlavə olaraq, mənim Azərbaycanda bir qadın olaraq sərbəst hər istədiyimi edə bilməyim də insanların diqqətini cəzb edir deyə düşünürəm. Çünki, belə bir şey deyim, mən ADA` da 1-ci kursda olan zaman rəfiqələrimlə evə gedəndə deyirdim ki,gəlin metroyla gedək onlar deyirdilər ki,yox evdəkilər icazə vermir,indi sürücü gələcək. Bunları eşidəndə mən şoka düşürdüm ki, sən universitet tələbəsisən və hələ də harasa getmək üçün evdəkilərdən icazə alırsan. Bütün gənc qızlara dəstək olmağa çalışıram. İstəyirəm ki cəmiyyətimizdə daha öz-güvənli və ailəli-təhsilli qadınlar olsun. Azad böyüyən, düşüncəsinə hörmət edilən insan daha öz-güvənli olur.




*Dizayner: Nathan Kamanga*

# GET READY TO MEET THE BEST UNIVERSITIES IN BAKU



# 8 APRIL 2023

## BAKU, AZERBAIJAN
## HILTON HOTEL
## 12:00 - 17:00

REGISTER for the largest International Education Fairs in Azerbaijan www.studycarefairs.com

The Interview Times.




**study care**
International Education Fairs

Sponsors & Partners:

QATAR AIRWAYS القطرية
BRITISH COUNCIL
AIESEC
azeri student You Study We Care
WHITE MIND AJANS AKADEMİ
ARI Xaricdə Təhsil Mərkəzi